# Maarifləndirmə tədbiri keçirilib

***Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı ilə kiçik və orta biznes nümayəndələri üçün "Vergi qanunvericiliyinə edilmiş dəyişikliklər və tətbiq olunan yeniliklər" mövzusunda onlayn maarifləndirmə tədbiri keçirilmişdir.***



Tədbirdə sahibkarlar Vergilər Nazirliyinin nümayəndələri tərəfindən vergi sahəsində dövlət siyasəti və Vergi Məcəlləsinə edilmiş son dəyişikliklər barədə məlumatlandırılmış, onları maraqlandıran suallar cavablandırılmışdır.

Sahibkarlar onlayn tədbirə ölkənin istənilən yerindən internet vasitəsilə (kompyuter, planşet və mobil telefondan istifadə etməklə) qoşulmuşdur. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) Qəbələ-Oğuz nümayəndəliyinin dəvəti ilə keçirilən onlayn təlimdə birbaşa olaraq 25 nəfər, fərdi olaraq 8 nəfər sahibkar faydalanmışdır.

**"Qəbələ"**

# Yeni körpü tikilir

***On doqquz min nəfər əhalinin yaşadığı 10 yaşayış məntəqəsini Qəbələ şəhəri ilə birləşdirən Bum-Tikanlı-Abrıx avtomobil yolunun ikinci kilometrliyində, Bum çayı üzərində yeni körpünün tikintisi və Bum qəsəbəsinə gedən 2 kilometrlik avtomobil yolunun yenidən qurulması istiqamətində görülən işlər yeni vüsət alıb.***

Yeni körpü 12 aşırımlı olmaqla uzunluğu 310 metr, eni isə 9 metr olacaq. Layihə çərçivəsində vətəndaşların körpüdə rahat və təhlükəsiz hərəkətinin təşkili üçün hər bir istiqamət üzrə piyada səkilərinin salınması da nəzərdə tutulur. Hazırda körpünün 13 dayağından 10-da tikinti işləri aparılır. Bundan başqa, avtomobil körpüsünün sağ və sol istinad divarlarının təməlqazma işləri də görülür.

Sözügedən ərazidə körpünün olmaması vətəndaşların rahat gediş-gəlişinə maneə yaradırdı. Belə ki, yaşayış məntəqələrinin əhalisi çayın bir tərəfindən o biri tərəfinə keçməkdə çətinlik çəkir, rayon mərkəzinə



və ətraf yaşayış məntəqələrinə getmək üçün təqribən 30 kilometr əlavə məsafə qət etməli olurdular.

Yeni körpünün inşası, həmçinin Bum qəsəbəsindən körpüyə qədər olan yolun yenidən qurulması əhalinin əlavə yol qət etmədən birbaşa rayon mərkəzinə və qonşu kəndlərə rahat gediş-gəlişini təmin edəcək.

**"Qəbələ"**

# Turistlərin ən çox üz tutduqları yer

***Sahəsi 420 hektar olan Qəbələ Dövlət Tarix-Bədii Qoruğu 3 tarixi məkandan - Antik şəhər yeri, Səlbir və Qala ərazilərindən ibarətdir.***

***Qaraçayla Covurlu çayları arasında yerləşən və eramızdan əvvəl IV əsrdən eramızın V əsrinədək 900 il Qafqaz Albaniyasının paytaxtı olmuş qədim Qəbələ şəhərinin qalıqlarının olduğu bu ərazi arxeoloji tədqiqatların aparılması, həmçinin turizmin təşkili və inkişafı baxımından böyük əhəmiyyət kəsb edir.***



Burada ilk dəfə arxeoloq Davud Şərifovun rəhbərliyi altında 1926-cı ildə aparılan arxeoloji tədqiqatlar 1945-1946-cı illərdə arxeoloq Saleh Qazıyev tərəfindən, 1959-cu ildən isə Azərbaycan SSR Elmlər Akademiyasının Saleh Qazıyevin rəhbərliyi altında yaratdığı Qəbələ arxeoloji ekspedisiyası (İqrar Əliyev, Firudin Qədirov, Qara Əhmədov, İlyas Babayev, Qafar Cəbiyev və digər arxeoloqlar) tərəfindən 1990-cı ilədək davam etdirilib.

Uzun fasilədən sonra - 2005-ci ildən etibarən SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının təşəbbüsü və maliyyə dəstəyi ilə AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloqları tərəfindən başlanan tədqiqatlar 2009-cu ildən Cənubi Koreyadan olan mütəxəssislərlə birgə davam etdirilib.

Aşkar edilən arxeoloji obyektlərin üzəri konservasiya olunub, məlumat lövhələri quraşdırılıb. Qoruq ərazisində müasir arxeoloji mərkəz yaradılıb.

Prezident İlham Əliyev 2014-cü ildə rayonumuza səfəri zamanı Qəbələ Arxeoloji Mərkəzi binasının açılışını edib.

Arxeoloji mərkəzdə iki sərgi salonu, bərpa laboratoriyası, konfrans zalı, kitabxana, arxeoloji fond və yardımçı otaqlar mövcuddur. Ərazidə aparılan arxeoloji qazıntılar zamanı aşkar olunan maddi-mədəniyyət nümunələri qeydiyyata alınaraq mərkəzin fonduna təhvil verilir və sərgi salonunda nümayiş etdirilir.

Dövlətimizin başçısı tərəfindən 2020-ci ilin Azərbaycan Respublikasında "Könüllülər ili" elan edilməsi ilə əlaqədar Qəbələ Dövlət Tarix-Bədii Qoruğuna və arxeoloji mərkəzə cəlb edilmiş könüllülərə Azərbaycan, rus və ingilis dillərində nəzəri-praktiki məşğələlər təşkil olunur.

Xalqımızın mədəni irsinin qorunub saxlanılması, tarixi, dini abidələrin bərpası və dünyada tanıdılması ilə bağlı Azərbaycanın Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən görülmüş işlərin miqyası ölçüyəgəlməzdir.

Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası da bu təşəbbüsə öz töhfəsini verməkməqsədilə Qafqaz Albaniyasının ilk paytaxtı olmuş qədim Qəbələ şəhərinin ərazisində arxeoloji tədqiqatlara, onun tarixinə, etnoqrafiyasına, mədəniyyətinə dair məlumatların geniş oxucu kütləsinə çatdırılmasına və təbliğinə dəstəyini əsirgəmir.

Assosiasiyanın dəstəyi ilə Qəbələ ilə bağlı aparılan elmi araşdırmaları əks etdirən "Qəbələ tarixi", "Qəbələ etnoqrafiyası" və "Qəbələ folkloru" kitablarından ibarət toplunun Azərbaycan, rus və ingilis dillərində nəşr olunaraq oxuculara təqdim edilməsi bu istiqamətdə görülən işlərə ən yaxşı töhfədir.

**Rais RƏŞİDOV,**
**"Qəbələ"**

# Məktəblərə qaz xətti çəkilir

Rayonunun qəsəbə və kəndlərində 8 təhsil müəssisəsinin qazlaşdırılması istiqamətində iş aparılır. Məktəb qazanxanalarına qaz xətlərinin çəkilişi Prezident İlham Əliyevin 2019-cu il 15 yanvar tarixli Sərəncamının icrası ilə bağlı Təhsil Nazirliyinə ayrılmış vəsait hesabına həyata keçirilir.

Qazlaşdırma işlərinin aparıldığı Nic qəsəbə 2 və 3 nömrəli, Yemişanlı, Qəmərvan, Nohurqışlaq kənd tam orta, Yengicə, Dizaxlı və Zirik kənd ümumi orta məktəblərin qazanxana sistemləri indiyədək maye yanacaqla işləyib. Qazlaşdırma işləri başa çatdırıldıqdan sonra bu təhsil müəssisələrinin istiliklə təminatı daha da yaxşılaşacaq.

Hazırda rayonda fəaliyyət göstərən 68 təhsil müəssisəsindən 27-si qazanxana sistemi vasitəsi ilə təbii qaz və maye yanacaqla, 6 modul tipli məktəb elektriklə, 35 məktəb isə odun yanacağı ilə qızdırılır.

**"Qəbələ"**

# Qida təhlükəsizliyinə dair tədbir

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində "Sağlam məktəbli" layihəsi çərçivəsində tədbir keçirilib.




Tədbir məktəblilər arasında qida təhlükəsizliyi anlayışının təbliği və şagirdlərə qida təhlükəsizliyi vərdişlərinin aşılanması məqsədilə təşkil olunub.

Tədbirdə məktəblərdə "Sanitar-gigiyenik norma və qaydalara əməl olunması", "Fast food" qidalarının ziyanları, "Qida etiketləri" mövzularında təqdimatlar edilib, videoçarxlar nümayiş olunub, fikir mübadiləsi aparılıb.

**Nahidə ƏBDÜRƏHİMOVA,**
**"Qəbələ"**

# Qəbələ müəllif turları üçün ən populyar üçlüyə daxildir

Azərbaycanda Bakı, Qobustan, Şəki və Qəbələ MDB ölkələrində müəllif turları üçün ən populyar istiqamətlər siyahısına daxil edilib.

Rusiyanın "TurStat" turizm portalı rusiyalı turistlər üçün MDB-də müəllif turlarının ən populyar istiqamətlərinin siyahısını təqdim edib.

Bu siyahıya, Azərbaycandan Bakı, Qobustan, Şəki və Qəbələ ilə yanaşı, həmçinin Qazaxıstandan Almatı şəhəri və Almatı vilayəti, Burabay və Aktau, Belarusdan Minsk şəhəri, Minsk vilayəti və Vitebsk, Özbəkistandan Buxara və Səmərqənd və s. daxil edilib.

"Turstat"ın məlumatına görə, müəllif turları turizmin ən populyar növlərindən birinə çevrilir. Travel-bloggerlər tərəfindən təqdim edilən müəllif turları və ekskursiyalar daha çox populyarlaşır.

Müəllif turları dedikdə, travel-ekspertlə 5-15 nəfərlik kiçik qruplarda səyahət və turlar nəzərdə tutulur.

Müəllif qastronomik turlarına, ekskursiya turlarına, trekinq-turlara və ekspedisiyalara, cip-turlara, həmçinin foto-turlara daha çox tələbat var. Bir həftəlik müəllif turuna turistlər iki adama 1000-1500 dollar xərcləməyə hazırdırlar.

Reytinq müəllif turları və istirahət təklifləri bazarının analizinin nəticələri əsasında tərtib edilib.

**"Qəbələ"**